# AZERBAIJAN BRITISH COLLEGE

*Təhsil Kompleksi*

## Strateji Plan 2028

# GİRİŞ

“Azerbaijan British College” Təhsil Kompleksi (ABC) rəsmi olaraq 2012-ci ildə Bakının mərkəzindən qərbdə yerləşən ərazidə beynəlxalq məktəb kimi təsis edilib. Onun əsası "Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi" İctimai Birliyinin (AIEC) yaradılması ilə qoyulmuş və SOCAR tərəfindən maliyyə dəstəyi ilə təmin edilmişdir. İşçi heyətinin SOCAR Təlim Mərkəzində 3 aylıq intensiv təlimindən sonra məktəb 1 noyabr 2012-ci ildə Bağça və Məktəbəqədər Təhsil bölməsini və 1-ci sinifi açdı. O zaman 14 müəllim fəaliyyət göstərir və cəmi 20 uşaq təhsil alırdı. 2013-cü ilin iyununda bu rəqəm 25-ə çatdı.

2015-ci ilin yayında ABC həm Edexcel Mərkəzi, həm də Cambridge Beynəlxalq Məktəbi kimi akkreditasiya üçün müraciət etdi. Sentyabr və oktyabr aylarında bu akkreditasiyalar təsdiqləndi və tələbələrə həm ibtidai, həm də orta məktəb səviyyəsində “Checkpoint” imtahanlarını, eləcə də IGCSE və A-Level imtahanlarını vermək imkanı yarandı. Bir ay sonra, ABC Avropa Beynəlxalq Məktəblər Şurasına (ECIS) üzvlük üçün də müraciət etdi və qısa müddətdə üzvlük təsdiqləndi.

Məktəb özünüqiymətləndirmə və xarici yoxlamalarda iştirak vasitəsilə əhəmiyyətli dərəcədə inkişaf etmişdir. 2018-ci ildə Beynəlxalq Britaniya Məktəbləri Şurası (COBIS) və Beynəlxalq Məktəblər Şurası (CIS) tərəfindən qiymətləndirmələr aparılmışdır. 2021-ci ildə ABC həm COBIS, həm də CIS tərəfindən tam akkreditasiya olunmuş üzv statusu əldə edərək, Azərbaycanın və Mərkəzi Asiya/Qafqaz regionunun yeganə tam akkreditasiya olunmuş məktəbi oldu. Bu nailiyyət onun regionun aparıcı təhsil müəssisəsi kimi mövqeyini möhkəmləndirdi.

edexcel Approved Centre

CIS COUNCIL OF INTERNATIONAL SCHOOLS

CAMBRIDGE International Examinations

BLACK SEA SCHOOLS GROUP

COBIS Council of British International Schools

MINISTRY OF SCIENCE AND EDUCATION REPUBLIC OF AZERBAIJAN

# İNDİ HARADAYIQ?




Təhsil Şurası və rəhbər şəxslər "Azerbaijan British College" Təhsil Kompleksinin uzun-müddətli strateji planını təqdim etməkdən məmnundurlar. Bu planı hazırlamaq niyyətimiz marağı olan tərəflərin hara doğru irəlilədiyimizi və nəyə nail olmağa çalışdığımızı aydın anlamaqları məqsədi ilə məktəbimizin etosunu, dəyərlərini, məqsədlərini və uzunmüddətli istiqamətini müəyyən etmək və çatdırmaqdır. Bu strateji plan Təhsil Şurası, baş rəhbərlər qrupu və işçi heyətinin nümayəndələri tərəfindən hazırlanıb.

Hər bir qrupun nümayəndələri, təhsil üzrə xarici məsləhətçi ilə keçirilən xüsusi təlimdən sonraki strateji planlaşdırma toplantısında iştirak ediblər. Həmin toplantılarda ideyalar formalaşdırılıb və təkmilləşdirilib. Qeyd etmək lazımdır ki, bizim əsas prioritetimiz ABC-də təhsil alan hər bir şagirdin həm akademik, həm də təlim-tərbiyə baxımından "əla" təhsil almasını təmin etməkdir. Bu, bizim ən vacib işimiz olaraq da qalacaq! Strateji planımız illik əməliyyat planımız olan Məktəbin İnkişaf Planı (SIP) ilə tamamlanır. Məktəbin inkişaf planı hərtərəflidir və təkmilləşdirilməsini tələb olunan bütün sahələri həll etmək məqsədini daşıyır. Biz məktəbimizin nailiyyətləri ilə qürur duyuruq və bunların qeyd edilməsinin vacib olduğunu düşünürük. Buna baxmayaraq fəlsəfəmiz ondan ibarətdir ki, biz həmişə öyrənirik və inkişaf etməkdən əsla dayanmayacağıq, "əla" səviyyədən daha yaxşı olmağa çalışacağıq. ABC-də şagirdlərin fikirlərinə böyük dəyər verilir, onların rəyləri və ideyaları planlaşdırma proseslərimiz zamanı mümkün olan hər yerdə nəzərə alınacaq. Ən yaxşı ideyaların çox vaxt məhz şagirdlərdən gəldiyini qəbul edirik.





# ƏVVƏLKİ PLANLAR

**2018-2021**

"Azerbaijan British College" Təhsil Kompleksi cavan qurumdur və 6-cı ildir ki, fəaliyyət göstərir. Baxmayaraq ki, işlərin əksəriyyəti düzgün görülür, biz fəaliyyətimizin davamlı inkişafını arzu edirik. Bu səbəbdən biz biz 2018-2021-ci illəri əhatə edən üçillik strateji plan hazırlamışıq.

Bu planın məqsədi məktəbin istədiyi gələcəyin yaradılmasını dəstəkləməkdir və "Azerbaijan British College" Təhsil Kompleksinin hazırki missiyası və baxışına uyğun olaraq hazırlanmışdır. Biz bu strateji planın mümkün qədər praktik və tətbiq olunacaq olmasını istəyirik. Buna görə də, o, xüsusi məqsədlər və bunlara necə nail olacağımızı göstərən strategiyalarla idarə olunacaq.

- Bərabərlik. Aydın bərabərlik inkişaf etdirmək.
- Akkreditasiyalar. CIS, COBIS və BSO akkreditasiyalarına nail olmaq.
- Vahid təhsil. Tədris prosesinə daha vahid yanaşma yaratmaq.
- Təhlükəsizlik və mühafizə. Təhlükəsiz və mühavizə olunan öyrənmə mühitini təmin etmək.
- Academic mükəmməllik. Akademik uğurlara nail olmaq.
- Təlim-tərbiyə. Təlim-tərbiyə prosedurlarını və valideynlərlə ünsiyyəti təkmilləşdirmək.
- Tədris metodologiyaları. Qabaqçıl tədris metodologiyalarının önündə olmaq.
- Beynəlmiləlçilik. Qlobal vətəndaşlığı inkişaf etdirmək.
- Diferensiasiya. Fərqli öyrənmə ehtiyaclarını nəzərə alan tədris və öyrənmə sistemini inkişaf etdirmək.
- Məlumat və rabitə texnloqoiyaları (ICT) və diqər texnoloqiyalar. MRT-nın və diqər texnoloqiyaların məktəbdə istifadə olunmasının inteqrasiyasını təkmilləşdirmək.
- Akademik proqram. Kurrikulumu inkaşf etdirmək və möhkəmləndirmək.
- Əmək haqqı və mükafatlandırma sistemi. Ədalətli və şəffaf ödəmə sistemini yaratmaq və tədbiq etmək.
- Qiymətləndirmə. Şagirdlərin qiymətləndirmə və hesabat sistemini təkmilləşdirmək və tədbiq etmək.
- Təhcizat və resursların tıminatı. Tələblərə cavab verən resursları təmin etmək.
- İnsan Resurslarının idarəedilməsi. İnsan resursların idarəedilməsi üçün düzgün prosedurlar yaratmaq və bunlara riayət etmək.
- Maliyyə. Məktəbin maliyyə sabitliyini təmin etmək.
- Təşkilati strukturun dəyişdirilməsi. Gələcək inkişaf üçün təlim-tərbiyə və akademik struktur qurmaq.

Qeyd edilməlidir ki, biz qısa tariximizdə böyük irəliləyişlər etmişik. Lakin, buna baxmayaraq ABC hələ də yüksək beynəlxalq standartlara uyğun bir məktəb olmaq üçün bir sıra məsələləri həll etməlidir. Bu strateji plan məktəbin inkişafı üçün nə etməli olduğumuzu göstərsə belə, məktəbin cari ümumi vəziyyətinin sürətli görüntüsü kimi qəbul olunmamalıdır, çünki məktəbin yaxşı fəaliyyət göstərən tərəfləri bu sənəddə əks olunmayıb.

# ƏVVƏLKİ PLANLAR **2022-2024**

Strateji planın hədəfləri. (2018/2021 CIS yoxlaması və 2017 COBIS yoxlaması daxil olmaqla, 2021-ci ildə marağı olan tərəflərə keçirilən sorğu).

| | | | | | |
|---|---|---|---|---|---|
| **Öyrənmə** | 1. IELTS C1 səviyyə sertifikatının işçilər üçün standartlaşdırıl-ması məqsədi ilə (Azərbaybaycan Dili şöbəsi üçün – 6.5) şagirdlər və əməkdaşlar üçün ingilis dilinə dəstək təminatının (EAL) təkmilləşdirilməsi. | 2. Bütün məktəb üzrə xüsusi təhsilə ehtiyacı olanlar üçün təminatın təkmilləşdirilməsi. | 3. Təhsildə vahid yanaşma əks etdirmək məqsədi ilə formativ və summativ qiymətləndirmənin yaradılması. | 4. Kurikulumun inkişafına və yoxlanılmasına şərait yaratmaq üçün, onu bütün məktəb üzrə (bağça bölməsindən orta təhsil bölməsinə qədər) uyğunlaşdırılması və tədbiqi. | 5. Tələbə, şöbə və məktəb səviyyəsində nəticələr qiymətləndirmə təhlilinin inkişafı. |
| **Qayğı. Təhlükəsizlik və Rifahın Qorunması** | 1. Mərhələ rəhbərləri ilə birgə hərtərəfli təlim-tərbiyə sturkturunun yaradılması. | 2. Məktəb üzrə PSHCE proqramının inkişafı və 12 və 13-cü siniflərə fokuslanaraq universitetə qəbul üzrə təlimatlandırılma. | 3. ABC daxilində CIS/ COBIS-in ən yaxşı təcrübəsini istifadə etmək məqsədi ilə "Təhlükəsizliyin və Rifahın Qorunması" siyasətinin təkmilləşdirilməsi. | 4. Qapalanma prosedurları daxil olmaqla şagirdlərin təhlükəsizliyini və böhranın idarəetmə planlarını ən yaxşı təcrübəyə və ABC kontekstinə uyğun olaraq təkmilləşdirilməsi. | 5. Qapalanma prosedurları daxil olmaqla şagirdlərin təhlükəsizliyini və böhranın idarəetmə planlarını ən yaxşı təcrübəyə və ABC kontekstinə uyğun olaraq təkmilləşdirilməsi. |
| **Tədris** | 1. Bütün tədris edən heyət üçün qiymətləndirilmə sisteminin yaradılması. | 2. Müəllimlərin qiymətləndirmə və müşahidə ilə bağlı olan standartların (Cambridge müəllim standartları) qəbul edilməsi. | 3. ABC yanaşmasını inkişaf etdirərək, Britaniya etosunun və mədəniyyətinin, həmçinin beynəlxalq və mədəniyyətlərarası düşüncə tərzinin təhsil proqramımızın bir hissəsi olmasını təmin etmək. | 4. Britaniya/ beynəlxalq ənənəni qorumaq və yerli işçilərlə əlaqəni təmin etmək üçün əcnəbi əməkdaşların işə qəbul prosedurlarının təkmilləşdirilməsi və xarici işçi qüvvəsinin sayının qorunması. | 5. Müəllim və valideyn arası əlaqənin yaxşılaşdırılması. |
| **Cəmiyyət** | 1. Məktəbdənkənar fəaliyyətin təminatının təkmilləşdirilməsi. | 2. Təhsil bölmələri arası missiya, gələcəyə baxış, məqsədlər və dəyərlərin vahidliyinin təkmilləşdirilməsi və cəmiyyətə inteqrasiyası. | 3. İllik bir şou/tamaşa yenidən tətbiq edərək cəmiyyət arasında geniş iştirakçılığı təşviqi. | 4. Aktiv tədbirlər sayəsində valideynlərin məktəb həyatında fəal iştirakının artırılması. | 5. ISAMS-a çıxışı və onun istifadəsini təkmilləşdirilməsi. |
| **İnfrastruktur** | 1. Texnologiyanın əldə edilməsi və saxlanması üçün plan və büdcənin yaradılması. | 2. Təhsil inkişafını nəzarətdə saxlamaq məqsədi ilə İH-nin üzvlərinin davamlı peşəkar inkişafda (CPD) iştirakı. | 3. Məktəb daxilində sərgiləri inkişaf etdirmək və məktəb mühitini inkişaf etdirmək üçün incəsənət əsərlərindən və şagirdlərin işlərindən istifadəsi. | 4. Məktəbdə cəmiyyətdən dayanacaq və uşaqları düşürmə ilə bağlı narahatlıqları həll edilməsi və nəzərdən keçirilməsi. | 5. Ödənişsiz təhsil üçün alternativ üsulların araşdırılması. |

# ABC-nin TƏHSİL FƏLSƏFƏSİ

Biz inanırıq ki, hər bir uşaq unikal bir fərdidir və onun, emosional, intellektual, fiziki və sosial cəhəddən böyüyüb inkişaf etməsi üçün təhlükəsiz, qayğıkeş və stimullaşdırıcı bir mühitə ehtiyacı var. O, həmçinin özünə inamını və əsas dəyərlərini inkişaf etdirməlidir. Müəllim olaraq bizim istəyimiz şagirdlərə bu sahələrdə tam potensiallarına çatmağa kömək etməkdir. Bunun üçün biz təhlükəsiz, risk almağa dəstək verən və fikirlərin paylaşılmasını təşviq edən bir mühit təmin etmək istəyirik.

Bizim inandığımız üç əsas amil aşağıdakilardır:
1) Müəllimin rəhbər kimi fəaliyyət göstərməsi;
2) Uşağa onun təbii marağı vasitəsi ilə öyrənməsini istiqamətləndirməyə icazə verilməsi;
3) Hər şeyə və hər kəsə hörmətin təşviq edilməsi.

Məktəbin fəaliyyət göstərdiyi 12 il ərzində bir sıra rəhbərlər olub və hər biri öz ideyalarını və proseslərini tətbiq edib. Lakin, bu dəyişikliklərin əksəriyyəti qısa müddətli olub, çünki hər yeni lider öz dəyişiklərini tətbiq edib.

Bizim rolumuz, əvvəlki yaxşı təcrübələrin istifadəsi ilə şagirdləri və müəllimləri tam inkişaf etdirərək, onları hörmətə layiq beynəlxalq Britaniya təhsil ilə təmin etməkdir.

Təhsil sistemləri şagirdlərin öyrənməsini dəstəkləmək üçün təkmilləşdirilməlidir. İşçi heyəti daha yaxşı istifadə edilməli və ən bacarıqlı şəxslərə ƏSG-lərə əsaslanaraq və uğurlarını tam təhlil edərək, rollar verilməlidir.Məktəbin gələcək inkişafı uğrunda ehtiyacları daha yaxşı qarşılamaq üçün yeni və spesifik təşkilati struktur hazırlanmalıdır.

## ABC-nin MƏQSƏDLƏRİ

ABC, öhdəlikli, bacarıqlı və qayğıkeş müəllimlərin inkişafını təşviq edən rəhbərlik təmin edir. Biz, aşağıdakı keyfiyyətləri şagirdlərimizdə inkişaf etdirmək üçün onların ehtiyaclarını qarşılayan, çətin bir akademik proqram təqdim edirik və valideynlər və cəmiyyətlə sıx tərəfdaşlıqları təşviq etməyə çalışırıq:

- Kəşf etmək, öyrənmək və yaradıcı düşünmək istəyi;
- Başqa mədəniyyətlərə dəyər vermək;
- Məktəbə, müəllimlərə, digər şagirdlərə və cəmiyyətə sədaqət və bağlılıq;
- Digərləri ilə əməkdaşlıq etmə və işləmə bacarığı;
- Sağlam həyat tərzi vərdişləri;
- Öz məsuliyyətini və müsbət özünə inamı;
- Çətinlikləri aşmaq üçün qərarlılıq;
- Sosial bacarıqlar və emosional intellekt.



### *Gələcəyə baxış*

**Kollecin şuarı.** "Nail olmaq üçün kəşf et"

**Birgə gələcəyə baxışımız.** Bağça və məktəbəqədər, ibtidai və orta təhsil bölmələrinin həm şagirdləri, həm də valideynləri üçün Bakıda ən çox seçilən Britaniya beynəlxalq təhsil müəssisəsi olmaq.

### *Missiya*

**Birgə missiyamız.** Çoxmədəniyyətli və çoxdilli təhsildə şagirdlərin intellektual, sosial, fiziki, psixoloji və emosional inkişafları üçün mövcud olan ən yaxşı mühit təklif etmək.

### *Dəyərlər*

**Əsas dəyərlərimiz.** Bizim əsas dəyərlərimiz, təşkilatın hər bir üzvü tərəfindən dərindən başa düşülən və bölüşülən mərkəzi inamlarımızdır. Onlar məktəbdə hər kəsin fəaliyyətinə rəhbər edir. "PRECISE" ("Dəqiqlik") adlandırılan əsas dəyərlərimiz aşagıdakiların vasitəsilə keyfiyyətli həyatların və güclü icmaların qurulmasına əsaslanır:

Əzmkarlıq ***(Perseverance)***, Hörmət ***(Respect)***, Iştirakçılıq ***(Engagement)***, Şəfqət ***(Compassion)***, Dürüstlük ***(Integrity)***, Özünü qiymətləndirmə ***(Self-Esteem)***, Mükəmməllik ***(Excellence)***



Məktəb heyəti həll olunmalı sahələrin detallı təhlilini apardı.

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| • Şagirdlərin sayı;<br>• Ölkədə ingilis dilinə tələbat;<br>• Gəlirli müəssisə;<br>• Yerli əhalinin məkanlara ehtiyacı;<br>• Peşəkar kadrlar;<br>• Təhsil Şurası dəyişikliklərə meyillidir;<br>• Bəzi şöbələr güclüdür. Sinif qrupları var;<br>• Kurikulum;<br>• Əlaqə;<br>• Dəstək göstərən rəhbərlik;<br>• Bina və avadanlıqlar;<br>• Təcrübəli kadrlar ;<br>• Müsbət öyrənmənin idarəçiliyi;<br>• Yemək;<br>• Təhlükəsizlik və rifahın qorunması prosedurları;<br>• Öyrənmə üçün tərbiyə;<br>• Fonika;<br>• Oxu və yazı;<br>• Məktəbdaxili kurslar və Peşəkar İnkişaf Təlimi (PİT/) imkanları;<br>• Gələcək liderlərin inkişafı;<br>• Qiymətləndirmə və proqnozlaşdırmanın təhsildə tətbiqi. Məlumatyönümlü öyrənmə;<br>• Müəllim asistentlərinin və təcrübəçi tələbələrin müəllim kimi inkişafı;<br>• Şagirdlər üçün seçim imkanları;<br>• Şagirdlər və valideynlər tərəfindən müsbət münasibət. | • Müxtəlif bacarıqlara malik işçilərin işə qəbulu;<br>• İngilis dili;<br>• Keçmişin tarixi – müharibələri xatırlatmamaq;<br>• Əmək haqqı;<br>• Maliyyə və büdcə;<br>• Bəzi yalnış resurslar;<br>• Marketinq;<br>• Struktur;<br>• Riayət olunmayan əməliyyatlar;<br>• Pedagoji metodikaların müxtəlifliyi;<br>• Cəmiyyətin iştirakı;<br>• Baş vəzifədə olan işçilərin dəyişməsi;<br>• Müxtəlif əcnəbi işçilər;<br>• Dərs cədvəlinin həcmi (ibtidai və orta təhsil bölməsi);<br>• Əcnəbi şagirdlərin çatışmazlığı;<br>• Yerli şagirlər;<br>• Əlaqə;<br>• Resursların keyfiyyəti;<br>• Dərsdənkənar fəaliyyətlər;<br>• Marketinq/ ictimai əlaqələr;<br>• Şagirdlərin davamiyyəti;<br>• Valideynlərin iştirakçılığı;<br>• İdman yarışları/dərsləri;<br>• Dərsə gəlməyən şagirdlər üçün evdə təhsil;<br>• 1-ci mərhələ üzrə mütəxəssis;<br>• Yüksəkkeyfiyyətli beynəlxalq əməkdaşların işə qəbulu;<br>• İşçilərin inkişafı və bacarıqlarının təkmilləşdirilməsi üçün imkanların çatışmazlığı;<br>• İşçilərin Peşəkar İnkişaf Təlimdə (PİT) iştirakı üçün büdcənin olmaması;<br>• İnzibati və akademik heyətin arasında əlaqə;<br>• Əmək haqqı və bununla bağlı işçilər arasında fərq. |

| İMKANLAR | TƏHLÜKƏLƏR |
|---|---|
| • Yerli yetişmiş orta rəhbərlər;<br>• İnkişafa marağı olan kadrlar;<br>• Cavan kadrlar;<br>• Beynəlxalq Britaniya Məktəbləri (BSO);<br>• Nəzərdən keçirilmə və təkmilləşdirilmə;<br>• Əcnəbilər üçün bazar;<br>• Daha çox şagirdlərin qəbulu;<br>• İnzibati və akademik heyətin sinergiya əsaslı fəaliyyəti;<br>• CIS-in fəaliyyət cədvəli;<br>• Kadrların və vəzifələrin dəyişdirilməsi;<br>• Digər müəssisələrlə əməkdaşlıq;<br>• İşçilərin peşəkarlığının davamlı inkişafı üçün təlimlər;<br>• İşçilər üçün dil biliyində dəstək;<br>• Sosial mediada reklam;<br>• Məlumatların təkmilləşdirilməsi;<br>• Fonika sahəsində region üzrə lider;<br>• İşçi davamiyyətinin təkmilləşdirilməsi;<br>• Üzgüçülükdə iştirakçılıq;<br>• Riyaziyyatın dəstəyi üçün konkret resurslar;<br>• Bütün məktəbin tədris və öyrənməyə diqqət yönləndirməsi;<br>• Hər kəsi daha çox liderlik imkanları və geniş fəaliyyət sahəsi ilə təmin etmək üçün yeni strukturun yaradılması;<br>• Məktəb dəyərlərinin ortamüddətli fəaliyyət planına daxil edilməsi;<br>• Təhsil liderlərinin hədəfli inkişafını təmin etmək üçün mövcud olan bir PİT büdcəsinin hazırlanması;<br>• İcmanın hissəsi olmağı və ya inkişaf etməyi istəmiyən işçilərin vəzifələrindən azad edilməsi;<br>• Administrasiyanın, prosesin hissəsi olmasına fokuslanma. | • Daha ucuz rəqabət;<br>• Bəzi proseslərin nizamnamə ilə məhdudlaşdırılması;<br>• Cavan kadrlar;<br>• Vahid məktəb etosun olmaması;<br>• Regional problemlər;<br>• Nüfuzun böyük zərəri;<br>• Digər məktəblər;<br>• Daha yaxşı şərtlərə görə məktəbi tərk edən kadrlar;<br>• Əməkdaşların işdə (vəzifədə) qalmaları;<br>• Şagirdlərin qəbul sayının azalması;<br>• Şikayətlər prosedurlarının ardıcılığına riayət etməyən valideynlər;<br>• Zəyif heyət üzvləri;<br>• Aşağı rəqəmlər;<br>• Təhsil sahəsində cari trendlərlə ayaqlaşma;<br>• Cəmiyyətdə xarici müəllimlərə qarşı mənfi münasibət;<br>• Beynəlxalq əməkdaşların dövriyyəsi;<br>• Təhsil Şurasının hələ də idarə etmək üçün cari “səthi” strukturu istifadə etməyə davam etməsi;<br>• Əmək haqlarında uyğunsuzluqlar və maaş artımları ilə bağlı qeyri-müəyyənliklər;<br>• SOCAR-ın bəzi sahələrdə maliyyə dəstəyinin dayandırılması;<br>• Müəyyən edilmiş potensial liderlərin fürsət çatışmazlığı səbəbindən məktəbi tərk etmələri;<br>• Kadrların qiymətləndirilməsindəki dəyişikliklərin heyətin ruhuna mənfi təsiri<br>• İngilis dilinin təkmilləşdirilməsi üçün büdcənin ayrılmaması<br>• Əmək haqqı strukturunun sayəsində yerli işçilərin daha yüksək standartlara malik olan işə yerlərin cəlb olunmaları. |

***Bu mövzular, məktəbdə aparılan sorğunun nəticələrindən əldə edilib və aşağıda qeyd olunan 5 fərqli sahə üzrə yerləşdirilib***









## *"Yaxşıdan Mükəmmələ Doğru"*











# ABC Strateji Planının məqsədləri

| Mövzu | Proseslər | Öyrənən Cəmiyyət | Profayl | Əməkdaşlıq | İnsanlar |
|---|---|---|---|---|---|
| **MƏQSƏD 1** | Şagird sayının artırılması- 10% artım | Məktəbin təşkilati strukturu, rollar və vəzifə öhdəlikləri – 12 ay ərzndə tamamlanır | Marketinq planı. İllik plan və qəbul olunan kadrlar. | Valideynlərin iştirakçılığı – 50% artım. Təhsil Şurasında valideyn nümayəndəsi. | Avtobusda oturacaqlar – işçilərin vəzifələri. 2-ci ilə kimi yeni kadrların gəlməsi. |
| **MƏQSƏD 2** | Fərqli pedagoji metodlar – dərslər üzrə göstəricilər 70% yaxşıdır. | İmtahan, qiymətləndirmə nəticələri – 10% artım. | Əsas səriştə göstəricilərinə (KPI) bağlı nəticələr. Təhsilalanların sayı | Valideynlərin məlumatlandırılması. Valideyn-müəllim birliyinin yaradılması. | İşçilərin vəzifələrə uyğun olaraq seçilməsi. Bütün orta və yüxarı rəhbərlərin yenindən təkrar müsahibədə iştirakları. |
| **MƏQSƏD 3** | İnzibati proseslər: qəbul prosesinin sürəti 5 gündür | Tədris və öyrənmənin illik müşahidələrə inteqrasiyası | Şagird tipi. Daha çox əcnəbilər – 10%. | Bakı cəmiyyəti. Böyük Britaniya Ticarət Palatasının üzvlərinin cəlb olunması | İşçi sayı, işə qəbul. Dəyişikliklərin 5% azalması. |
| **MƏQSƏD 4** | Məktəb rəhbərlərinin öhdəliklərinin bölüşdürülməsi – kadrların qiymətləndirilmə göstəriciləri bütün baş rəhbərlər üçün yaxşı və ya daha yüksəkdir | İngilis dili və ünsiyyəti birinci dil səviyyəsinə çatdırılması – 20% artım | Şagird sayı – 10% artım | Qara Dəniz Məktəblər Cəmiyyəti (Blacksea Schools Oveseas). Bakıda idman və təlim tədbirlərinin təşkili | Kadrların qiymətləndirilməsi. Məktəbin bütün işçilərinə əsaslanan 12 aylıq sistem . |
| **MƏQSƏD 5** | Qiymətləndirmə, profayl, hesabatlılıq və imtahan nəticələri – 10% artım | Məktəbəqədər təhsil bölməsi 1-ci mərhələyə bağlıdır. Şagird qəbulunun 10% artımı | Bazarda mövqeyimiz. Əsas rəqiblər | Beynəlxalq cəmiyyət. COBIS-də fəal iştirakçılıq | Ödənişlər və şərait. Bütün maaşların nəzərdən keçirilməsi və maaş cədvəlinin yaradılması |
| **MƏQSƏD 6** | Orta rəhbərlər və direktor asistentləri – 10% dövriyyə | Mərhələlər üzrə şaqird sayının saxlanılması – 10% artım | Britaniya təhsili. Regionda GCSE üzrə ən yaxşı nəticələr | Təhsil Şurasının iclaslarının ildə 4 dəfə keçirilməsi. Komitələrin toplantıları. Valideyn/ işçi üzvlüyü | Rolların yoxlanılması. 2026-da bitir |
| **MƏQSƏD 7** | Valideynlərin kurikulum haqqında maariflәndirilməsi – gündəlik, həftəlik, aylıq olaraq yazılı şəkildə və ya fərdi görüşlər zamanı | Öyrənmə üçün davranış. Daha az cəzalandırılanlar - 10%. | Avtobusun istiqaməti. 4 illik strateji plan dəyişmir | C.I.S./COBIS. Resursların istifadəsi və iştirakçılıq | Təhlükəsizlik və rifahın qorunması və proseslər. Təyin olunmuş koordinatorların sayını azalması və mərhələ kordinatorlarını cəlb edilməsi |
| **MƏQSƏD 8** | Standartlar və yoxlamalar. Britaniya Beynəlxalq Məktəblər şurasında qeydiyyat | PİT, CIS/COBİS təlimləri – 10% artım | Brendləşmə, uniforma, məktəbəqədər təhsil bölməsinin forması, idman formaları, nəqliyyat üzərində brend | Şagird şurası – ildə 3 dəfə tədbirlərin keçirilməsi. Milli və beynəlxalq olimpiadalar, layihələr və yarışlarda iştirak. | Sağlam zəka/ bədən, şagirdlərin və işçilərin davamiyyəti. Sayın qorunması |
| **ƏSAS MƏQSƏD** | **VAHİD MƏKTƏB** | **VAHİD MƏKTƏB** | **VAHİD MƏKTƏB** | **VAHİD MƏKTƏB** | **VAHİD MƏKTƏB** |